*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 11 mart 2020-ci il № 19 (2437) Qiymıəti 30 qəpik


*Ön xətdən reportaj*

# Səngər, Ay işığı və "Şuşanın dağları"



Ön xətdə gecələr bir-birinə bənzəmir.

Səngərdi, əsgərlərdi, Ay işığıdı, bir də bunlara sarılan düşüncələrimdi. Bu gecə bir ayrı gecədi. Gecə mənim istəyimlə uzanmayacaq, onu rəmzi olaraq əsgərlərin səngərli söhbətləri uzadacaq...

Bu gecənin qaranlığı çəkingən qaranlıqdı. Ay işığı qaranlığı kirpik-kirpik əridir...

Bu gecə muraz, arzu, niyyət gecəsidi elə bil. Elə bil indiyəcən Ay ulduzlara, ulduzlar Aya bunca yaxın, bunca munis, ruhən belə "qol-boyun" olmayıb; səngərdən belə görünür...

Səngərə yaxından bələd olanlar bilir ki, burada düşüncələr söhbətlərin mahiyyətinə görə hərdən bir ürək tutumunca incələşir, incələşə-incələşə kövrəkləşir. Belə incələşmə, belə kövrəkləşmə davamlı olmur. Səngərə yaxından bələd olanlar onu da bilir ki, səngərdə düşüncələr həmişə, bir məqamda bir qədər də qətiləşir, qətiləşə-qətiləşə ötkəmləşir. Belə qətiləşmə, ötkəmləşmə davamlı olur, dönməz olur. Bu dönməzliyin, qətiləşməyin sonu qələbə olacaq - bu gecə həm də bu əminliyin gecəsidi. Ona görə belə gözəl gecədi...

Səngərli düşüncələr qətilikdən, ötkəmlikdən, döyüş əzmindən Ali Baş Komandanın döyüş əmrinə qədər müddətli möhlət istəyir. Bu möhlət səngərə deyil, Vətənə gərəkli möhlətdi, döyüş əzminə, qələbə ruhuna sədaqətli möhlətdi. Bu gecə səngərdə, bu möhlətin cazibəsində əsgərlərimizin əhatəsindəyəm, poeziyamızın Səməd Vurğununun təbirincə desək, vaxt üstümüzdən yel kimi əsə bilməyəcək.

Səngərdə vaxtından-vədəsindən, məqamından asılı olmayaraq nə haqda düşünürsən-düşün, sonunda gözucu da olsa göy üzünə baxırsan. Az sonra sağında-solunda baxışları baxışlarına sarılanları görürsən, o baxışlara qeyrət deyirsən. Göyün gözlərində gördüklərinə heyrət deyirsən. Duyursan ki, həmin heyrətin əlləri həmin qeyrətə sarı uzalıdı. Duyursan və bir boy da dikəlirsən, səngərdə, gecə yarı Ay işığında var səsinlə qışqırmaq istəyirsən: Sən qalib gələcəksən, Azərbaycan əsgəri! Sən qeyrətinlə, Vətənə sevginlə tarix yazacaqsan!"

Bu gözəl kəlmələri səngərli söhbətlərin mahiyyəti dedizdirir. Bu mahiyyət həm də "Səngər Ali Baş Komandanın əmriylə Azərbaycan əsgərini döyüşlərə, döyüşlərdən keçirib qələbəyə aparacaq yolun başlanğıcıdı" - dedizdirir. Ruhunla eşidirsən, ürəyin dağa dönür. Gecənin gecə vaxtı Azərbaycan əsgəri səngərdə, Ay işığında göyü yerəələməyə, yeri göyə dikəltməyə qadir olan inamla, qətiyyətlə deyir ki, bu qadir başlanğıcdan - döyüş əzminin, qələbə ruhunun dikəldiyi, boy göstərdiyi başlanğıcdan baxanda Böyük Qələbənin boyu aydınlığıyla görünür...

Müharibənin ilk illərində səngərlər belə deyildi. Onda səngərləri qışın sazağı-şaxtası üşüdürdü, yayın istisi-bürküsü təntidirdi. Təkcə səngərlər deyil, ictimaiyyətin ruhu da üşüyürdü, təntiyirdi. O dolaşıq zaman ötüşdü, yaşanıldı - keçdi...

Səngər Vətənin bir parçasıdı...

Zaman anlamında sabah torpaqlarımızda səngər olmayacaq. Azərbaycan əsgəri dönməz inamla səngərdə, Ay işığında deyir ki, hərbi xidmət bunun üçündü.

**(Ardı 4-cü səhifədə)**

# "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır"

*Bu günlərdə keçirilən genişmiqyaslı komanda-qərargah təlimləri çərçivəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti yaradılmasının ildönümü qeyd edilən cəbhəboyu zonada yerləşən hərbi hissələrdən birinin ön xətt bölmələrində oldular. Ön xətdə döyüş növbəsi çəkən hərbi qulluqçulara qiymətli hədiyyələr təqdim ediblər. Qiymətli hədiyyələrlə mükafatlandırılan hərbi qulluqçuların fikirlərini oxucularımızla bölüşürük.*



**Leytenant Aslan Məzahirli:**

- Müdafiə Nazirliyinin rəhbər heyətinin düşmənlə təmas xəttində yerləşən bölmələrimizə səfərləri biz Vətən müdafiəçilərinin döyüş, mənəvi-psixoloji hazırlığına müsbət təsir göstərir. Hələ xidmətimin astanasındayam. Qarşımda məsuliyyətli vəzifə dayanır. Bu şərəfli yolda mənim kimi, əsgərlərim də hər an döyüşə hazır olmalıdırlar. Bunun üçün ali hərbi təhsil ocağında mənimsədiklərimi onlarla bölüşürəm. Çalışıram ki, hərb sənətinin incəliklərini dərindən mənimsəsinlər. Asudə vaxtlarımızdan da səmərəli istifadə edirik. Şəxsi heyətə Vətəndən, torpaqdan, müharibədən, şəhidlikdən, qəhrəmanlarımızdan danışırıq. Vətənimizin keşiyində dayanan igidlərimizin düşüncələrində Vətənimizə məhəbbət, düşmənə nifrət hiss olunur. Əminliklə deyə bilərəm ki, Ali



Baş Komandanımız döyüş əmri verərsə, əsgərlərimiz mərdliklə döyüşəcək, hər döyüşdən qələbəylə ayrılacaqlar. 2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin Günnüt zəfəri bunun bariz nümunəsidir. Bu döyüşlərdə düşmən Azərbaycan əsgərinin gücünü, qüdrətini və peşəkarlığını gördü.

Cənab nazirimiz tərəfindən qiymətli hədiyyəyə layiq görülmək, göstərilən etimadı doğrultmaq mənim üçün böyük qürurdur. Bu hadisə illər keçsə də, yaddaşımdan silinməyəcək. Həm cənab nazirimizlə söhbətim, həm də bu şərəfli yolun başlanğıcında belə qiymətli hədiyyə ilə mükafatlandırılmağım çox sevindiricidir. Hesab edirəm ki, bu hədiyyə mənim bacarıqlı zabit kimi formalaşmağımda zəhməti keçən hər kəsə verilən qiymətdir. İstər orta məktəbdə, istərsə də hərbi məktəbdə müəllim heyətinin üzərimizdə əziyyəti böyük olub. Bu xəbəri eşidəndə mənim qədər onlar da sevinəcəklər. Bu gün aldığım mükafat müəllimlərimə olan minnətdarlığımın nişanəsidir. Çalışacağam ki, bundan sonra da onların əziyyətini yerə vurmayım. Biz son nəfəsində də qəlbi Vətən eşqi ilə döyünən şəhidlərimizin davamçılarıyıq, hər addımımızda onların adlarını zirvələrə qaldırmalıyıq. İnanıram ki, tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə xalqımıza Qələbə sevincini yaşadacaq, üçrəngli bayrağımızı Şuşada, Kəlbəcərdə, Laçında... dalğalandıracağıq.

**Əsgər Elvin Məmmədov:**

- Yuxarı komandanlığın diqqət və qayğısı sayəsində sosial-məişət şəraitimiz ən yüksək səviyyədədir. İçməli su və istiliklə, eyni zamanda, isti yataq və digər lazımi qış ləvazimatları ilə tam təmin olunmuşuq. Heç bir problemimiz yoxdur. Problemimiz və yaxud narahatçılığımız yaranan kimi qayğıkeş komandirlərimiz yerindəcə həll edirlər. Bu da bizim xidmətimizi daha da asanlaşdırır. Belə sevgi və qayğının qarşılığında isə hər birimiz xidmətimizi düzgün təşkil edir, verilən əmr və tapşırıqları sözsüz və vaxtında yerinə yetiririk. Peşəkar və təcrübəli komandirlərimizin rəhbərliyi altında döyüş, fiziki, atəş və nizam-intizamımızdan savayı, vətənpərvərlik ruhumuz, əzmkarlığımız da yüksək səviyyədədir.

Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bizimlə görüşü məndə xüsusi təəssürat yaratdı. Sosial-məişət şəraitimizlə yaxından tanış oldu. Hər birimizə qiymətli hədiyyələr təqdim etdi. Əlbəttə, bu görüş ruh yüksəkliyi yaratmaqla yanaşı, xidmətimizi daha da yaxşı təşkil etməyimiz üçün bizlərə stimul verdi. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və rəhbər heyətin bizimlə görüşə gəlməsi, xidmətimiz və şəraitimizlə maraqlanması bizim üçün ən böyük hədiyyədir. Yuxarı komandanlığın biz əsgərlərə göstərdiyi qayğını hərbi həyatımız-



da hər gün hiss edirik. Müasir şəraitimiz, yüksək təminatımız bunun bariz nümunəsidir. Belə yüksək qayğının qarşılığında layiqli xidmət etmək hər birimizin mənəvi borcudur. Biz təlim zamanı nümayiş etdirdik ki, döyüş qabiliyyətimiz yüksəkdir. İstənilən döyüş tapşırığını yerinə yetirməyə hər an hazır və qadirik. Ali Baş Komandanımızın əmri ilə istənilən an işğal altında olan torpaqlarımızı azad edəcəyik. Ən böyük arzumuz Böyük Qələbənin iştirakçısı kimi təltif olunmaq və xalqımıza qələbə sevincinin müjdəsini verməkdir.

**Əsgər Elnur Sadıqov:**

- Uşaq vaxtlarından ermənilərin xalqımıza qarşı törətdikləri vəhşilik haqqında ailəmizdə və orta məktəbdə eşitdiklərimizlə, sənədli filmləri izləməklə böyümüşük. İnsanlığa sığmayan hə-



rəkətlərini görəndə düşmənə olan nifrətim gündən-günə artırdı. Böyüklərimizdən Vətənimizin müqəddəs olduğunu, onun uğrunda canımızdan keçməyə hazır olmağı öyrənmişik. Bu düşüncə ilə böyüyən Azərbaycan gəncinin yalnız bir amalı var - Ali Baş Komandanın döyüş əmri ilə işğalda olan torpaqlarımızı azad etmək.

Hərbi xidmətə çağırış vərəqəsini alanda çox həyəcanlı idim. Nəhayət, mən də Vətənin keşiyində dayanan qardaşlarımın sıralarına qatılacaqdım. Hərbi mundiri geyindiyim, Vətənə sədaqət andı içdiyim vaxtdan döyüş əmrini gözləyirəm. Böyük Qələbə naminə komandirlərimizin öyrətdikləri hərbi biliklərə dərindən yiyələnir, təhkim olunan silahların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyirik. Hərbi Nizamnamələrin tələblərinə uyğun xidmət edirik.

Keçirilən genişmiqyaslı təlimlər Azərbaycan əsgərinin illərin həsrətinə son qoymağa hazır olduğunu göstərir. Əsgəri xidmətimdə qatıldığım birinci təlim deyil. Ancaq bu təlim digərlərindən fərqlənir və mənim üçün ikiqat yaddaqalan olacaq. Müdafiə naziri general-polkovnik Zakir Həsənov hərbi xidmətdə fərqləndiyimə görə mənə də qol saatı hədiyyə etdi. Bu hədiyyənin qürurunu, sevincini illər boyu yaşayacam. Əsgər yoldaşlarım, valideynlərim də çox sevindilər. Bir daha əmin olduq ki, yaxşı xidmət həmişə qiymətləndirilib. Bundan sonra da çalışacağam ki, komandirlərimin etimadını doğruldum.

**Əsgər Əli Rəhimov:**

- Müdafiə naziri general-polkovnik Zakir Həsənovla görüşdüyüm gün xatirəmdə silinməz iz buraxıb. Həmin gün ən yaddaqalan gün kimi yaddaşıma əbədi həkk olundu. Onun bizimlə görüşməsi, xidməti yerlərimizlə yaxından tanış olması, çay süfrəsi arxasında çox səmimi söhbət etməsi əsgər yoldaşlarım kimi, məni də qürurlandırdı. Bu amil ayıq-sayıq olmağımız, verilən əmr və tapşırıqları daha dəqiq və vaxtında yerinə yetirməyimiz üçün bir stimul yaratdı.

Müdafiə naziri hər birimizə Vətən qarşısında göstərdiyimiz xidmətə görə təşəkkürünü bildirdi, qiymətli hədiyyə təqdim etdi. Bu hədiyyənin böyük mənəvi dəyəri var. Bu saat təkcə vaxtı göstərmir, ona baxanda həmin an keçirdiyim sevinci, həyəcanı görürəm. Müdafiə nazirimiz tərəfindən qiymətləndirilmək, ondan "sağol" almaq hər kəs kimi mənim üçün də əvəzolunmaz hissdir. Onu sadəcə yaşamaq, hiss etmək lazımdır. Hədiyyə təqdim ediləndə sevincdən və həyəcandan ürəyim dağa dönmüşdü. Komandirlərimin qürurlu baxışlarını üzərimdə hiss edirdim. İstərdim ki, həmin an doğmalarım da məni görsün. Sizin sayənizdə onlar bizi görəcək və əminəm ki, Vətən qarşısında övladlıq borcumu layiqli yerinə yetirdiyim üçün mənimlə fəxr edəcəklər. Bu hadisə təkcə mənə yox, bütün şəxsi heyətə ruh yüksəkliyi aşılayır. Rəhbər heyətin sıx-sıx görüşə gəlməsi, şəraitimizlə maraqlanması bizə göstərilən yüksək etimaddır.



Bunun qarşılığında hər birimiz Ali Baş Komandanımızın döyüş əmri ilə düşməndən qisas almağa, işğal altında olan torpaqlarımızı azad etməyə, soydaşlarımızı yenidən öz ata-baba ocaqlarına qaytarmağa hazırıq. Qələbə gününə çox az qalıb.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kiçik çavuş Nicat Mehdiyev:**

- Hər zaman hərbçi olmaq arzusunda olmuşam. Uşaq vaxtlarımdan ailəmizdə hər kəs mərd Azərbaycan övladlarının keçdiyi döyüş yolundan söhbətlər edərdi. O zaman nizami ordumuz, silah-texnikamız yetərincə güclü səviyyədə deyildi. Buna baxmayaraq mərd oğul və qızlarımız düşmən üzərinə atılırdı. Torpaqlarımızın hər qarışı üçün cəsarətlə döyüşürdülər. Düşmənə layiqli cavab verirdilər. Belə söhbətləri dinlədikcə hərbçi olmaq arzum gündən-günə çoxalırdı. Nəhayət, hərbi xidmətə çağırıldım. Ön xətt bölmələrinin birində xidmət etdim. Xidmətim dövründə hərb peşəsinin müqəddəsliyini və vacibliyini daha yaxşı anladım. Komandirlərimin davranışları, səmimiyyəti, mənəvi-əxlaqi keyfiyyətləri, Vətənə bağlılıqları bu peşəyə olan sevgimi daha da artırdı. Tərxis olunduqdan sonra torpaqlarımıza, Vətənimizə olan sevgim ordu sıralarında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etməyimə səbəb oldu.

Xidmət etdiyim müddətdə çalışmışam ki, əsgərlərimizin qayğısına qalım. Onlara həm komandir, həm də dost olum. Keçirilən məşğələlərin sayəsində əsgərlərimiz gündən-günə döyüş, atəş



və fiziki hazırlıqlarını artırırlar. Bunun nəticəsidir ki, şəxsi heyətimiz torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır, düşmən mövqelərini daim müşahidə edir. Erməni qəsbkarlarını bir an da olsun gözdən qoymur. Atəşkəs rejimini pozmağa cəhd edən işğalçıların qarşısını qətiyyətlə alır. Düşmən qısa müddət ərzində dəqiq atəş zərbələri ilə susdurulur. Onlar hər an ordumuzun gücünü, qüdrətini hiss edir. Aprel döyüşləri və Günnüt zəfəri bir daha təsdiqlədi ki, yenilməz ordumuz torpaqlarımızı tez bir zamanda işğaldan azad edəcək. Bunun üçün isə hər birimizə Ali Baş Komandanımızın döyüş əmri yetərlidir.

Bu gün mükafatlandırılanlar sırasında olmağım mənim üçün böyük fəxrdir. Çox sevinirəm ki, Müdafiə naziri bu mükafata məni də layiq görüb. Rəhbərliyin mənə göstərdiyi bu etimadı daima doğruldacağam. İnanıram ki, torpaqlarımızı işğaldan azad edənlərin sırasında mən də olacağam. Tezliklə Şuşada, Xankəndidə, Zəngilanda, Laçında.., Azərbaycan bayrağı dalğalanacaq.

**Baş leytenantlar
Orxan HÜSEYNLİ,
Ruslan HƏSƏNZADƏ,
leytenant
Oruc MUSTAFAYEV,
"Azərbaycan Ordusu",
fotolar
Coşqun CƏFƏROVUNDUR**

# Beynəlxalq Qadınlar Günü Azərbaycan Ordusunda qeyd edilib

*Müdafiə Nazirliyinin tabeliyində olan hərbi hissələrdə Azərbaycan Ordusunda xidmət edən qadın hərbi qulluqçu, həmçinin mülki işçilərin iştirakı ilə 8 Mart Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbirləri keçirilib.*

Müdafiə nazirinin bayram münasibətilə təbriki tədbir iştirakçılarına çatdırıldıqdan sonra qadınlara bayram hədiyyələri və çiçək dəstələri təqdim olunub.

Eyni zamanda, bayram günündə ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi yad edilib, şəhid analarına və xanımlarına da bayram hədiyyələri təqdim olunub.



* * *

Hərbi Dəniz Qüvvələrində Beynəlxalq Qadınlar Gününə həsr olunmuş bayram tədbiri keçirilib.

Tədbirdən əvvəl ümummilli lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni səsləndirilib.

Tədbirdə çıxış edən birinci dərəcəli kapitan Natiq Bağırov qadınları təbrik edib, Vətən qarşısında vəzifə borclarını şərəf və ləyaqətlə yerinə yetirən Azərbaycan qadınının ölkəmizin müdafiə qüdrətinin artırılmasında və ərazi bütövlüyümüzün bərpa edilməsində də yaxından iştirak etdiyini qeyd edib.

Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsinin Qadınlar



və Hərbi Qulluqçuların Ailələri ilə iş üzrə şöbəsinin müdiri Zümrüd Səmədova xanımları təbrik edib, Azərbaycan Ordusunun bütün qoşun növlərində, xüsusi təyinatlı təhsil müəssisələrində, hərbi tibb ocaqlarında və digər sahələrdə xidmət edən yüzlərlə hərbi qulluqçu və mülki işlərdə çalışan qadınlarımızın da əməyinin daim yüksək qiymətləndirildiyini bildirib. Qadın hərbi qulluqçuların və mülki işçilərin bundan sonra da Vətənə, xalqa, dövlətə sədaqət göstərəcəklərinə əminliyini ifadə edib. Onlara həm xidmətlərində, həm də şəxsi həyatlarında uğurlar və müvəffəqiyyətlər arzulayıb.

Sonda hərbi hissənin qadın qulluqçularına bayram hədiyyələri və çiçək dəstələri təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinq keçiriləcək

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, martın 11-də Ağdam rayonu istiqamətində Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində növbəti monitorinqin keçirilməsi planlaşdırılır.

Monitorinqi Azərbaycan tərəfindən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Gennadi Petrika və Martin Şuster keçirəcəklər.

Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş və nəzarət olunan Azərbaycan ərazisində monitorinqi ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri Mixail Olaru və Oqnyen Yoviç keçirəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***9 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 31 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı, Bala Cəfərli kəndlərində, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər, Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Mərzili, Füzuli rayonunun Qərvənd kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***10 mart 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 30 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Aşağı Əskipara, Qızılhacılı kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Acarlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

*Gənc zabitlərimiz*

# Qələbəyə az qalıb!..

*Bəşəriyyətə yaxşı məlumdur ki, insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. Bəşər övladının mahiyyəti, mənəvi keyfiyyətləri onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır. Dərk edilmiş məsuliyyətdən irəli gələn fəaliyyət isə cəmiyyətdə layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirən bu insanların gənc yaşlarında ömrün kamillik zirvəsinə yetişməsinə yardımçı olur.*



Belə insanlardan biri - 1996-cı ildə Salyan rayonunda dünyaya göz açan, 2003-2006-cı illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə, 2006-2010-cu illərdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil alan, Aprel döyüşlərində fərqləndiyinə görə "İgidliyə görə" medalı ilə təltif olunan gənc zabit kapitan Elvin Əhədovla "N" hərbi hissəsində tanış olduq.

Söhbət zamanı zabit tariximizin səhifələrinə qızıl hərflərlə yazılan, qürur mənbəyimiz olan Aprel döyüşlərindən söz açdı. "Aprel döyüşləri Azərbaycana döyüş əzmi gətirdi. Qəhrəman Azərbaycan əsgəri düşmənə layiqli cavab verməklə yanaşı, işğal altında olan mühüm əhəmiyyətli yüksəklikləri və əraziləri işğaldan azad etdi. Uzun illərin ayrılığından sonra düşmən tapdağında olan torpaqlarımızın bir qismi tarixi sahibinə qovuşdu. Azad olunan ərazilərdə üçrəngli bayrağımız dalğalandı".

"Aprel döyüşünə qatılan hər bir Azərbaycan əsgəri və zabiti yalnız bir amal uğrunda vuruşurdu - irəli getmək və qələbə qazanmaq", - deyə gənc zabit sözünə davam etdi. - İşğal altında olan digər rayonlarımızda da bayrağımızı dalğalandırmaq istəyi bizi döyüşə ruhlandırırdı. Aprel döyüşlərinin nəticəsi göstərdi ki, Azərbaycan zabiti və əsgəri qürurlu, cəsarətli, əyilməzdir. Bu döyüşlər Azərbaycan əsgərinin yenilməzliyini, eyni zamanda, Azərbaycan Ordusunun işğal altında olan torpaqlarımızı azad etməyə qadir olduğunu sübut etdi.

Kapitan Elvin Əhədov Müdafiə naziri general-polkovnik Zakir Həsənovdan "İgidliyə görə" medalını almasının sevincini də bölüşməyi yaddan çıxarmadı. "Azərbaycan Ordusunun zabiti olmağımla hər zaman qürur duymuşam. Aprel döyüşlərinə və bu döyüşlərin nəticəsi olaraq təltif olunduğum "İgidliyə görə" medalına görə keçirdiyim qürur hissi isə başqa bir söhbətin mövzusudur. Müdafiə naziri medalı təqdim edərkən dedi: "Azərbaycan Ordusu bu gün yüksək inkişaf dövrünü yaşayır. Aprel döyüşləri də bunu sübut etdi. Bu inkişafın sabahkı taleyi sizin - gənc zabitlərimizin əlindədir. Dövlətimiz sizə hər cür qayğı göstərməkdədir. Mən sizdən - sabahın qalib əsgərlərini yetişdirənlərdən Vətənimizə yorulmaz xidmət gözləyirəm. Aprel döyüşlərində göstərdiyiniz rəşadət ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilir. Bu gün Sizə təqdim edilən "İgidliyə görə" medalını Azərbaycan Ordusunun bütün şəxsi heyətinə verilən medal hesab edirəm".

Gənc zabit onu da qeyd etdi ki, ünvanına Müdafiə nazirinin dediyi xoş sözləri özünə təqdim edilən medal qədər dəyərli hesab edir. "Bu gün dövlət və ordu rəhbərliyinin bizlərə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, Azərbaycan Ordusunun şəxsi heyətində özünə, öz gücünə, istedadına inam hissi artıb. Hərbi qulluqçular da öz növbəsində dövlət qayğısını daim hiss edərək nailiyyətləri ilə onlara göstərilən etimadı layiqincə doğrultmağa çalışırlar. Bu yüksək münasibətə cavab olaraq Azərbaycanın parlaq gələcəyinin təminatçısı olan ordumuz bütöv və müstəqil Azərbaycan naminə bütün gücünü səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, Prezidentinə, Ali Baş Komandanına arxalanır. İnanırıq ki, bu etimaddan güc alan Azərbaycan Ordusu tezliklə Azərbaycan xalqını işıqlı sabahlara aparacaq. Qələbəyə az qalıb!..

**Mayor**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Səngər, Ay işığı və “Şuşanın dağları”

(Əvvəli 1-ci səhifədə)

Səngərdə bunlar haqqında düşünmək də, birinin digərinə söykək olduğuna yəqinliklə inanmaq da Vətənə sevgidəndi. Səngərə düşən Ay işığının gecəligündüzlü səngərdən üzülməyən döyüş əzminin, qələbə ruhunun işığına necə sarıldığını müşahidə etmək, həmin işığın bu işıqla çulğaşmasında təbiət - bəşər eyniliyi görmək sözlə ifadə edilməsi mümkün olmayan könül xoşluğudu. Səngərdə, əsgərlərin əhatəsində olanda belə könül xoşluğu başqa kövrək duyğularla tamamlanır, onda bunlardan biri digərinin yaranmasına vasitə olur...

Gecənin gecə vaxtı səngərdə xalq şairi Vaqif Səmədoğlunun "Mən burdayam, İlahi!", - misrasını xatırlayırıq. "Mən" demədik, "biz" deyirik. Misranı hamılıqla "Harada olmalıydıqsa həmin məkana uğur üstəyik!", - fikriylə tamamlayırıq. Hamımıza elə gəlir ki, dar macalda səngərin işığı artır...

Bir qədər aralıdan gələn avaz ürəyimizi telləndirir. O məlahətli - bir az qılıq, bir az toxdaqlıq, bir az təsəlli olan avaz ahənrübaya dönüb hamımızın baxışını özünə çəkir. Bu, həsrətin, intizarın gözlərinə kül ələməkdi, bu, işğalı gözlərindən güllələməkdi, bu, yaxındakıların ürəyini, uzaqdakıların ruhunu ecazkarlıqla sillələməkdi. Bu gözəl avazın dinlənilməsinə sədəmə toxunmasını heç kim istəməzdi, istəmir; zabit Vüsal Həziyev gecdən-gec istəmədən, bəlkə də məcburən ağırağır dillənir:

- Şuşanı görməyən şuşalıdı. Oxumaq həvəsi gələndə oxuyur. Oxumasını "Şuşanın dağları"yla başlayır, "Arazbarı" oxuyur, "Qarabağ şikəstəsi" oxuyur, "Heyratı" oxuyur, oxumasını "Şuşanın dağları"yla da bitirir: “Şuşanın dağları başı dumanlı...”

Əsgər Əmrah Quliyev deyir ki, bu avaz bizim qələbə ruhumuzun çağırışıdı. Gizir Nizam Lətifzadə əsgərin sözünə söykək kimi deyir ki, bu ruh Böyük Qələbədir.

"O duman işğal dumanıdı, əsgər qardaşım. O çəkingən dumanı Ali Baş Komandanın döyüş əmriylə siz dağıdacaqsınız!", - demək istədim. Nələrisə nəzərə alıb avazına, səsinə heyran olduğum əsgərin əlini sıxmağı, ürəyimdən keçənləri deməyi dan üzünə saxlayıram. Dan yeri ağaranda şuşalı əsgərə deyəcəkdim:

- "Şuşanın dağları"nı çox yerdə, çox eşitmişəm. Xan əminin ruhu məni bağışlasa deyərdim ki, heç biri bu qüdrətdə olmayıb. Bu qüdrət təkcə sənin avazında deyil, bu, "Şuşanın dağları"nın səngərdə səslənməsinin qüdrətidi.

"Təbəssümümüzü dan yerinin həlim yelləri bürüyəcək", - düşünürəm. Elə də olur...



On illər əvvəl səngərlərə düşən Ay işığı belə deyildi. İllərdən sonra o vaxtlar niyə belə olduğunu ürəyimə yük eləmək istəməsəm də, bu fərqi yaradan amillərin əsgəri olduğumuzu xatırlayıram və Ay işığını daha çılğınlıqla gözlərimə, gözlərimdən ürəyimə köçürürəm. Müharibə bu gün-sabah qurtaracaq, sərhədlərimiz daxilində səngər olmayacaq, bir də səngərli gecəm olmayacaq. Bu anlarda elə istəyirəm ki, bu gecə, burada Ay işığı əllərimdən yapışıb məni özünə çəksin, Cıdır düzünü, İsa bulağını, Ərgünəşi, Qırxqızı, Topxananı, Ərimgəldini,... görəm, ürəyimin pası bir baxışlıq tökülə. Bu qəribə, mistik düşüncənin ömrü bir anlıqmış. "Buna sənin qüdrətin çatmaz, Ay işığı. Bu qüdrət Azərbaycan əsgərindədi. Ali Baş Komandanın döyüş əmriylə məni - bizi, hamımızı bu gözəl istəklə Azərbaycan əsgəri qovuşduracaq. Cıdır düzünü, İsa bulağını, Ərgünəşi, Qırxqızı, Topxananı,... salamlayacağımız günə az qalıb. O gecəyə son illərin ən gözəl gecəsi deyəcəyik. O gecə sən daha şahanə görünəcəksən, Ay işığı. Daha şahanə görünəcəksən deyə könlüm sultanlıq edəcək. Onda "Şuşanın dağları"nı ilk dəfə dinləyirikmiş kimi dinləyəcəyik. Dan yeri sökülər-sökülməz görəcəyik ki, Şuşanın dağlarının dumanı çəkilib...", - deyirəm. Ağarışdanan dan yerində bu qətiyyətin Lələtəpəyə, Bayraqtəpəyə tən boyunu aydınlığıyla görürəm və əsgərlərin əlinin avtomatın qundağını bunca sıxmasını döyüş əzminin, qələbə ruhunun ifadəsi bilirəm. Gördüyümüzün bu yozumu Azərbaycan Ordusuna, Azərbaycan əsgərinə, Azərbaycan Ordusunun qüdrətinə, Azərbaycan əsgərinin Hərbi anda, dövlətə, dövlətçiliyə, sədaqətinə inam kimi zabit Ruslan Hüseynovu duyğulandırır. Qürurla, göz dolusu sağ əli hələ avtomatın qundağından üzülməyən əsgərlərə baxır. Bu baxışda şükranlıq, (jurnalistin timsalında ictimaiyyətin orduya güvəndiyinə əminlik) görürəm, əsgərlərə ünvanlanacaq təşəkkür (sədaqətli xidmət, ictimaiyyətin inamı) görürəm.

Səsimi özümdən savayı heç kim eşitmir...

Əsgər Elnur Cabbarzadə deyir ki, Ay işığı da, o oxuma da Şuşanın dağlarının həsrətindədi...

...Gecə gecədən keçib...

Heç kimin gözləri yuxuya tamsınmır. Bu da səngərin, səngərli söhbətlərin mahiyyətinin qədirliyinin təsdiqidi; yuxusunun qaçmasından heç kim gileyli deyil...

İstəyirik ki, bu gecə Ay işığı gözlərimizdə gecələsin...

"Şuşanın dağları"na görə Şuşasızlıq sıxıntıları içində Şuşanın dağlarını düşünürəm.

Gecənin gecə vaxtı Şuşanı görməyən şuşalı əsgər səngərdə "Şuşanın dağları"nı oxuyur:

*Şuşanın dağları başı dumanlı,*
*Dərdindən ölməyə çoxdu gümanlı...*

Ulduzların işığına məhəl qoymadan o səngərə, bu səngərə düşən Ay işığı, "Şuşanın dağları"nın nə vaxtsa belə duyğusallıqla dinlənildiyi olubmu? Olsa, bilərdin, olmayıb...

Gecənin gözlərini bunca dolan görməmişdim. Bu, səngərdə oxunan "Şuşanın dağları"nın hünəridi, Ay işığı, sənin də gözlərinin dolduğuna zərrəcə şübhəm yoxdu. Yüz-yüz illərdi ən şirin, ən rahat yuxunu Şuşanın dağlarında görübsən; Şuşanın dağları nazbalınca dönüb, "Şuşanın dağları" - laylayına, oxşamana. O illərin həsrəti sürmələyib gözlərini. O həsrəti sədaqətlə duyuruq, sezirik. Sən bizim həsrətimizi duyduğun, sezdiyin kimi...

Dan yeri sökülür. Gecədən bəri səngərə düşən Ay işığı düşüncələrimin bənzərsiz bürüncəyidi; düşüncələrimin bir əli Ay işığından yapışıb, bir əli "Şuşanın dağları"ndan. Səngərdə Azərbaycan əsgəriylə Vətəndən, torpaqdan, Böyük Qələbədən, torpaqlarımızın işğaldan azad ediləcəyindən, ... danışırıq. Ay işığı əsgərlərin döyüş əzminin, qələbə ruhunun bənzərsiz haləsidi...

...Bu gecə bir ayrı gecəydi...

Bu gecə düşüncələrimizmi Ay işığına sarılmışdı, Ay işığımı düşüncələrimizə, bilmədik. Onu bildik ki, hər gecənin bir aydın səhəri olur...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Hərbi hissənin yaranması günü qeyd olundu

*Bu günlərdə "N" hərbi hissənin yaranması günü qeyd olundu. Tədbir iştirakçıları ilk öncə Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət etdilər. Ümummilli Liderin abidəsi və şəhidlərin məzarları önünə əklil və tər çiçəklər düzərək ehtiramlarını bildirdilər. Müqəddəs ocaqda 1992-ci ilin oktyabrında Vəng kəndi uğrunda gedən döyüşlərdə ağır yaralanan ehtiyatda olan baş leytenant Nizami Əhmədov söz alaraq bildirdi ki, əlil olsa da, Ali Baş Komandanın əmriylə döyüşməyə, torpaqlarımızı işğaldan azad etməyə hazırdır.*





“Azərbaycan Bayrağı” ordenli şəhid leytenant Yaşar Rəhimovun qardaşı Habil Rəhimov da şəhidləri ziyarət edənlərin sırasındaydı: - Qardaşımın döyüşçü yoldaşlarının bir çoxu ilə xoş münasibətim var. Yaşar döyüşdə şəhid olanda onlar yanında olub. Həm öz yerimə, həm də Yaşarın yerinə torpaqlarımızı yağılardan təmizləməyə hazıram.

Tədbir Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində davam etdi. Mərasimdə xalqımızın ümummilli lideri Heydər Əliyevin və şəhidlərin xatirəsi yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Ehtiyatda olan polkovnik Nazim Əhmədov hərbi hissənin döyüş yolu haqqında geniş məlumat verdi. Sonra polkovnik Oruc Abdullayev Müdafiə naziri general-polkovnik Zakir Həsənovun və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun hərbi hissənin döyüşçülərinə ünvanladığı təbrik məktublarını çatdırdı. Müdafiə nazirinin döyüşçülərə ünvanladığı təbrik məktubunda deyilirdi: "Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə hərbi hissə bir çox uğurlu hərbi əməliyyatlar həyata keçirmiş, nəticədə 40-dan çox yaşayış məntəqəsini azad etmişdir. Uğurlu hərbi əməliyyatların iştirakçısı olmuş bu döyüşçülərin torpaqlarımızın azadlığı naminə həmrəy olmaları hərbçilər arasında böyük ruh yüksəkliyinə səbəb olmuşdur...".

"N" hərbi hissəsində tabor komandiri olmuş ehtiyatda olan mayor Pənah Məmmədov taborun döyüş yolundan danışaraq qeyd etdi ki, bu hərbi hissədə xidmət etmiş Vəzir Orucov, Yusif Mirzəyev, Kərim Kərimov və başqaları döyüşlərdə göstərdikləri şücaətlərə görə Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüblər.

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Mehdi Mehdiyev, ehtiyatda olan baş gizir Tapdıq İbrahimov, Qarabağ əlili Osman Şahverdiyev də hərbi hissənin döyüş yolundan danışdılar. Kursantlar və müharibə iştirakçıları hərbi hissənin keçdiyi döyüş yolunu əks etdirən qısametrajlı filmə baxdılar.

Sonda keçmiş döyüşçülərə və bəzi tədbir iştirakçılarına Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəhbərinin qiymətli hədiyyəsi və "Təşəkkürnamə"si təqdim olundu.

**"Azərbaycan Ordusu"**

# Qadınlar da nümunəvi xidmətləriylə fərqlənir

*Ümummilli liderimiz Heydər Əliyevin qadın hüquqları ilə bağlı həyata keçirdiyi tədbirlərin uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün ölkəmizdə qadın əməyinə yüksək qiymət verilir. Ölkəmizdə qadınlar ictimai-siyasi, sosial-mədəni həyatın bütün sahələrində, eləcə də ordu quruculuğunda fəal iştirak edir, səmərəli fəaliyyətləri ilə seçilirlər.*





Tarixin bütün dönəmlərində mərdliyi və şücaəti ilə seçilən Azərbaycan qadınları kişilərlə çiyin-çiyinə Vətənin müdafiəsinə qalxaraq yurdumuzun təhlükəsizliyini hər şeydən üstün tutublar. Bu gün sələflərinin yoluna sədaqət göstərən qadın hərbi qulluqçularımız Vətən qarşısındakı vəzifə borclarını şərəflə yerinə yetirirlər. Azərbaycan Ordusunun bütün birlik, birləşmə və hərbi hissələrində qadın hərbi qulluqçuların da fəaliyyəti üçün müasir xidmət şəraiti yaradılıb. Qadın hərbi qulluqçularımızdan nümunəvi xidməti ilə seçilənlərin əməyi dövlətimiz tərəfindən hər zaman yüksək qiymətləndirilir.

Plana uyğun olaraq qadın hərbi qulluqçular təlim-məşq toplantılarına cəlb edilir, sinif şəraitində hərbi-nəzəri dərslərdə, poliqonlarda isə praktiki məşğələlərdə biliklərini artırır və təlim-atış çalışmalarını yerinə yetirirlər. Bütün qoşun növlərində qadın hərbçilərimizin sayı günü-gündən artmaqdadır. Yaradılan şəraitin nəticəsidir ki, hərbçi olmaq istəyən qadınlar Azərbaycan Ordusunda keçirilən kurslara cəlb edilir, təlimlərdə bilik, bacarıq və peşəkarlıq qazanırlar. Kurslarda müxtəlif ixtisaslar üzrə hazırlanan qadın hərbi qulluqçular birləşmə və hissələrdə ixtisaslarına uyğun vəzifələrə təyin edilirlər.

Bu gün ali hərbi təhsil ocaqları ilə yanaşı, Silahlı Qüvvələrin Hərbi Hospitalında və hərbi hissələrin xəstəxanalarında xidmət edən qadınlarımız zabit, gizir və əsgərlərin sağlamlıqlarının qorunması üçün əllərindən gələni əsirgəmirlər.

Eyni zamanda, birlik, birləşmə və hərbi hissələrdə Vətənimizi qoruyan əsgərlərə dadlı, yüksək kalorili yeməkləri qadın hərbi qulluqçular hazırlayırlar.

Göründüyü kimi, qadın hər nə qədər zərif cinsin nümayəndəsi olsa da, mətanəti və iradəsi ilə ciddi intizam tələb edən hərb sənətinin də öhdəsindən layiqincə gəlir. Ümumiyyətlə, Azərbaycan Ordusunda xidmət edən bütün hərbi və mülki qulluqçu qadınlarımız öz hüquq və vəzifələrini dərk edərək, xidmətlərini Nizamnamələrin tələbləri səviyyəsində yerinə yetirirlər.

Bütün bunlar onu sübut edir ki, ölkəmizdə qadınlar da kişilərlə bir sırada Vətənimizin daha da çiçəklənməsi, müdafiə qüdrətinin möhkəmlənməsi naminə səylərini əsirgəmirlər.

Azərbaycanın ərazi bütövlüyü uğrunda neçə-neçə qadın hərbi qulluqçu şəhidlik zirvəsinə ucalıb, Azərbaycanın Milli Qəhrəmanı fəxri adına, döyüş orden və medallarına layiq görülüb. Qadınlar bu gün də hərbi peşələrə böyük maraq göstərərək Azərbaycan Ordusunda xidmət etmək istəyirlər.



**Mayor Aygün Muradova:**

- 1999-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul oldum. Burada hərbi biliklərə yiyələndim, təcrübəmi artırdım. 2004-cü ildən təhsil aldığım məktəbdə zabit kimi xidmətə başladım. Böyük həvəslə xidmət edir, verilən tapşırıqları məsuliyyətlə yerinə yetirirdim. Bacarıq və səriştəmi nəzərə alan komandanlıq 2014-cü ildə mənə kitabxana rəisi vəzifəsini tapşırdı. Hələ kiçik yaşlarımdan kitablara, mütaliəyə böyük marağım var idi. Yeni xidmət sahəsində işimə həvəslə başladım. Hərbi qulluqçularımız asudə vaxtlarında bura gələrək kitab oxuyurlar.

Təhsil ocağının professor-müəllim heyətinə, hərbi qulluqçulara böyük həvəslə xidmət edirik. Oxuculardа mütaliəyə maraq oyatmaq məqsədi ilə onlara yeni ədəbiyyatlar haqqında məlumat veririk. Bayram və anım günlərində kitabxanada sərgilər təşkil edirik. Hazırda Xocalı faciəsini əks etdirən kitab, qəzet, jurnal və fotolardan ibarət sərgi açmışıq.

Dünyanın bütün inkişaf etmiş ölkələrində qadınlara müəyyən üstünlüklər verilir, diqqətlə yanaşılır. Bu gün dövlətimiz bu ənənəni uğurla davam etdirir. Cəmiyyətimizdə qadınların nüfuzu daim artırılır. Bütün bunlar isə biz qadınların işıqlı sabahlarından xəbər verir. Belə bir dövlətin vətəndaşı, belə bir ordunun zabiti olmaq xoşbəxtlikdir.

**Gizir Hürnisə Əliyeva:**

- Hərbçi olmağı çoxdan arzulayırdım. Bu istəyim 2014-cü ildə reallaşdı. Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kursu bitirdikdən sonra hərbçi kimi xidmətə başladım. Bu illər ömrümün ən mənalı dövrüdür. Çünki bu illər ərzində Silahlı Qüvvələrin hərbi qulluqçularının sağlamlığının keşiyində dayanmışam. Bu şərəfli və qürurverici işimi uğurla davam etdirirəm. 2 nömrəli tibb texnikumunda təhsil almışam. Orada qazandığım tibbi bilik və təcrübə hər addımda köməyimə gəlir. Poliklinikamıza müraciət edən hərbi qulluqçulara diqqət və qayğı ilə yanaşırıq. Müvafiq arayışların, göndərişlərin hazırlanması və verilməsi işində onlara lazımi köməklik göstəririk.

Poliklinikamıza hərbi qulluqçularla yanaşı, gələcəkdə hərbçi olmaq istəyən gənclər də həkim baxışından keçmək üçün müraciət edirlər. Onlara baxanda çox sevinirəm. Gənclər gündən-günə güclənən ordumuzun sıralarına böyük həvəslə qoşulurlar. Onlar qəhrəmanlarımızın döyüş yollarını şərəflə davam etdirəcəklər.

**Gizir Gülnar Niftalıyeva:**

- Ulu öndər Heydər Əliyevin dediyi "Qadınlar cəmiyyətin bəzəyidir, gözəlliyidir. Qadınsız cəmiyyət ola bilməz, həyat ola bilməz. Azərbaycanda qadınlar da öz ağıllarına, zəkalarına, biliklərinə, istedadlarına görə dünya qadınları içərisində özünəməxsus yer tuturlar. Ona görə də biz qadınlarımızla fəxr edirik" sözləri qadınlara verilən qiymətdir. Bu gün həmin siyasəti Prezident, Ali Baş Komandan İlham Əliyev qətiyyətlə davam etdirir. Bu isə Azərbaycan qadınlarının məsuliyyətini daha da artırır. Qadınların ictimai-siyasi həyatdakı fəallığı ilbəil güclənir. Azərbaycan qadını ölkəmizi bütün dünyada ləyaqətlə təmsil edir. Azərbaycan Prezidentinin Sərəncamı ilə Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi və bu qərarın ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanması da Azərbaycan qadınına etimadın nə qədər yüksək olduğunu təsdiqləyir. Mən də bir qadın kimi fəxr edirəm ki, Azərbaycan vətəndaşıyam, Azərbaycan Ordusunun hərbi qulluqçusuyam.



**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu baş əsgər Gülnarə İsmayılova:**

- Uşaq vaxtlarından hərb sənətinə sevgim sonsuz olub. Özümü dərk edəndən hər zaman hərbçi olmaq, Vətənimizin müdafiəsində dayanmaq istəyirdim. Bir neçə ildir ki, operator vəzifəsində xidmət edirəm. Komandirlərimizin verdiyi əmr və tapşırıqları dəqiq və vaxtında yerinə yetirirəm. Bölmələrdən aldığım məlumatları yuxarı komandanlığa çatdırıram. Gün ərzində tez-tez postlarla əlaqə saxlamaq lazım gəlir. Hər zaman işimə məsuliyyətlə yanaşaraq, təcili xəbərləri dərhal müşahidə dəftərində qeyd edib komandanlığa məruzə edirəm.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər İlhamə Nəsirova:**

- Səkkiz ildən çoxdur ki, "N" hərbi hissəsində aşpaz vəzifəsində xidmət edirəm. Bütün əsgər analarını bu bayram münasibətilə təbrik edir, onlara möhkəm cansağlığı arzulayıram. Hərbi hissədə əsgərlər üçün hər cür şərait yaradılıb. Tam arxayın olsunlar ki, övladları heç nədən korluq çəkmədən müqəddəs vəzifələrini yerinə yetirirlər. Biz də onları öz övladlarımız bilirik.

**Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Məryəm Kərimova:**

- Hər kəs ordumuzla fəxr edir. Ordu bizim qürur mənbəyimiz, güvənc yerimizdir. Mən bu qüruru ikiqat yaşayıram, çünki illərdir ordu sıralarında xidmət edirəm. Biz uşaqlıqdan orduya, zabitimizə, əsgərimizə sevgi və rəğbətlə böyümüşük. Orta məktəbdə müəllimlərimiz, evdə valideynlərimiz həmişə şərəfli peşə sahiblərindən ağızdolusu danışar, hərbçilərin müqəddəs vəzifələr yerinə yetirdiyini deyərdilər. Hazırda həmin peşə sahibləri ilə bir arada dayanmaqdan, hərbi mundir daşımaqdan qürurlanıram. Heç bir çətinlik çəkmədən xidmətim uğurla keçir, vəzifələrimin öhdəsindən layiqincə gəlirəm. Biz üzərimizə düşən məsuliyyəti və gördüyümüz işin mahiyyətini yaxşı dərk edirik.

**"Azərbaycan Ordusu"**



AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Mövzu:** 31 Mart - Azərbaycanlıların soyqırımı günüdür.

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırım haqqında əldə olan tarixi materiallardan, həmin hadisələrin şahidi olanların xatirələrindən istifadə etməli, eləcə də əvvəlki dərslərdə ermənilərin separatçı siyasəti haqqında öyrənilənləri dinləyicilərə bir daha xatırlatmalı və mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

**Suallar:**

**1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti.**

**2. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri.**

**3. Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır.**

*Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı və bu fərmanın tarixi əhəmiyyəti*

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən müxtəlif vaxtlarda məqsədyönlü şəkildə həyata keçirilən terror, etnik təmizləmə, soyqırımı siyasəti Azərbaycan tarixinin faciələrlə müşayiət olunan çox ağrılı mərhələlərini təşkil etmişdir. Bu millətçi siyasətin əsas məqsədi azərbaycanlıları tarixi torpaqlarından çıxarmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Tükiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsi nəticəsində onların bu bölgədə süni surətdə çoxaldılması, XX əsrin əvvəllərindən başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur.

Bu cinayətkar siyasətin davamlılığını sübut edən fakt ondan ibarətdir ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə - 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırımı və etnik təmizləmələrə məruz qalmışdır.

Ermənilərin XX əsrdə həyata keçirdikləri soyqırımı, deportasiya və etnik təmizləmə siyasəti nəticəsində Azərbaycan 1918-1929-cu illərdə 29.8 min $km^2$ ərazisini itirmiş, 1991-1993-cü illərdə 20 faiz ərazimiz işğal edilmişdir. 2.5 milyon azərbaycanlı soyqırımı və deportasiya cinayətlərinin qurbanı olmuşdur.

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra xalqımızın tarixi keçmişinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə edilmişdir. Uzun illər gizli saxlanılan, üzərinə qadağa qoyulmuş həqiqətlər açılır, təhrif edilmiş hadisələr özünün əsl qiymətini alır. Azərbaycan xalqına qarşı ermənilər tərəfindən törədilmiş soyqırım da uzun müddət tarixin açılmamış səhifələrindən biri olmuşdur.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, soyqırımı və təcavüzkar siyasətin əsl mahiyyəti açıqlanmış, bu hadisələrə siyasi qiymət verilmişdir. Ermənilərin xalqımıza qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı fərmanla 31 mart - Azərbaycanlıların soyqırımı günü elan edilmişdir. Bu mühüm sənəddə Azərbaycan XIX əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər tarixində görünməyən vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınların - soyqırımların tariximizdə ilk dəfə olaraq rəsmən adı çəkilir, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953 və 1988-1993-cü illərdə erməni millətçi, şovinist dairələri və onları dəstəkləyən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Cənubi Qafqaz miqyasında azərbaycanlı əhaliyə qarşı aparılmış düşmənçilik siyasətinin kökləri açılır. "Böyük Ermənistan" xülyasını həyata keçirməyin əsas yolunu tarix boyu bu ərazilərin yerli sakini olmuş azərbaycanlıların məhv edilməsində, köçürülməsində, onların tarixi və mədəniyyət abidələrinin dağıdılmasında, yer adlarının dəyişdirilməsində görən antiazərbaycan qüvvələrinin mənfur fəaliyyətinə siyasi qiymət verilir.

*Azərbaycan xalqına qarşı ermənilər tərəfindən aparılmış genosid siyasətinin məzmunu, tarixi xronikası və ağır nəticələri*

XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduqları "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətlərini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırımı siyasətini həyata keçirməyə başladılar.

Belə ki, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı quldur dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər. Ermənilər 200 mindən çox azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirməklə həmin ərazidə çar Rusiyasının onlara vəd etdiyi "Ermənistan dövləti"ni qurmaq üçün etnik təmizləmə aparmışlar. Belə ki, birinci Dünya müharibəsi zamanı (1914-1918) zəifləyən Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz ideyalarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin martından etibarən "əksinqilabçı ünsürlərlə mübarizə" adı altında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilmiş Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Kommunası tərəfindən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanıldı.

Ermənilərin silahlı hücümları nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Bakıda və digər Azərbaycan ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir. Eyni zamanda Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında isə 30 minə yaxın, Quba qəzasında 16 mindən çox azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-1920-ci illərdə indiki Ermənistan Respublikası ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və yaxud doğma torpaqlarından didərgin düşmüşdür. Erməni cəza dəstələrinin törətdiyi vəhşiliklər və daşnak hakimiyyəti dövründə yürüdülən "türksüz Ermənistan" siyasəti nəticəsində İrəvan quberniyasının azərbaycanlı əhalisinin sayı 1918-ci ildə 565 min nəfərdən 1920-ci ildə 10 min nəfərə enmişdir.

Ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə davam etdirilməsi nəticəsində minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmişdir. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılmış, maddi-mədəniyyət nümünələri məhv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət yetirilmişdir. 1919 və 1920-ci illərdə martın 31-i Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən ümummilli matəm günü kimi qeyd olunmuşdur. Əslində, bu, azərbaycanlılara qarşı yürüdülən soyqırımı siyasətinə, XIX əsrdə və XX əsrin əvvəllərində torpaqlarımızın işğalı proseslərinə tarixdə ilk dəfə siyasi qiymət vermək cəhdi idi. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işin başa çatmasına imkan vermədi. Şovinist ruhlu erməni millətçilərinin azərbaycanlılara qarşı cinayətlərinin cəzasız qalması, bu cinayətlərə heç bir siyasi-hüquqi qiymətin verilməməsi səbəbindən Sovet hakimiyyəti dövründə də azərbaycanlılar dəfələrlə onlara qarşı yeridilən antihumanist siyasətlə üzləşmişlər. Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların taleyi bu düşünülmüş millətçi siyasətin əyani təzahürüdür. Həmin siyasətin davamı olaraq, 1948-1953 və 1988-1989-cu illərin zorakı deportasiyaları nəticəsində Ermənistan SSR-dən yarım milyona yaxın azərbaycanlı qovulmuş, onların bütün əmlakı talan edilmişdir.

1988-ci ildə yenidən baş qaldıran erməni separatizmi, ermənilərin Dağlıq Qarabağda apardığı işğalçı müharibə və etnik təmizləmə siyasəti nəticəsində azərbaycanlı soyqırımı qurbanlarının sayı daha da artmışdır. Azərbaycan xalqına qarşı törədilmiş təxribat xarakterli qırğınlar nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi, eləcə də ona bitişik 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) işğal edilmiş 18 mindən çox azərbaycanlı həlak olmuş, 20 mindən çoxu yaralanmış, 4 mindən çox azərbaycanlı əsir və itkin düşmüş, girov götürülmüş, 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından zorla qovulmuş, 4 mindən çox sənaye və kənd təsərrüfatı müəssisəsi, 660 məktəb və uşaq bağçası, 250 xəstəxana və tibb müəssisəsi dağıdılmış, azərbaycanlıların yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Bütün bunların nəticəsində təkcə XX əsrdə 2.5 milyon azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri qanlı terror və soyqırım siyasətinin təsirinə məruz qalmışdır. Demək olar ki, indi Azərbaycanda erməni millətçilərinin zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

*Ordumuz Ermənistanın separatçı-işğalçılıq siyasətinə son qoymalıdır*

Dünyada misli görünməmiş qanlı üsullarla zaman-zaman Azərbaycan xalqına qarşı çoxəsrlik tarixə malik düşmənçiliklərindən əl çəkməyən ermənilər yaranmış tarixi şəraitdən sui-istifadə edərək, xalqımızın başına min bir müsibətlər gətirmiş, torpaqlarımızın 20 faizdən çoxunu işğal etmişlər. Bu gün tək Azərbaycan üçün deyil, həm də region üçün təhlükə mənbəyinə çevrilmiş Ermənistan bir tərəfdən öz işğalçılıq siyasətinə haqq qazandıraraq, zəbt etdiyi Azərbaycan torpaqları üçün separatçı-şovinist status əldə etmək istəyir, hələ bu azmış kimi Naxçıvan məsələsini də ortaya atır. Digər tərəfdən isə özlərinin "əzabkeş xalq" olduqlarını dünyaya car çəkir, "genosid qurbanı" olduqlarını təsdiq elətdirmək üçün dəridən-qabıqdan çıxır, dünya ictimaiyyətini aldadaraq, tarixi saxtalaşdırırlar.

2016-cı ildə Ermənistanın növbəti təxribatı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində də çox ciddi fəsadlara gətirib çıxarmışdır. Ermənistan daima danışıqları müxtəlif yollarla pozmağa çalışmış və beynəlxalq vasitəçilər tərəfindən onlara qarşı təzyiqlər artdığı halda növbəti təxribatlara əl atmağa başlamışlar. Həmin təxribatlardan biri də aprel ayının əvvəlində baş vermiş silahlı təxribat hadisəsidir. Lakin Azərbaycan Ordusu bu təxribatın qarşısını vaxtında alıb düşmənə layiqli cavab verərək, əks-hücum əməliyyatı həyata keçirmiş və işğal altındakı torpaqların bir hissəsini, daha dəqiq desək 2 min hektar torpağımızı düşmən tapdağından azad etmişdir. Aprel döyüşləri və Naxçıvandakı uğurlu əməliyyatlar düşmən üzərində böyük zəfərin başlanğıcı olaraq göstərdi ki, Azərbaycan Ordusu istənilən zaman öz torpaqlarını azad etməyə və ərazi bütövlüyümüzü bərpa etməyə hər an hazırdır!

Bu gün Azərbaycanın hərbi potensialının gücləndirilməsi prioritet olaraq qalmaqdadır. Aprel hadisələrindən və Naxçıvandakı uğurlu əməliyyatlardan sonra ordumuz döyüş qabiliyyətini yüksək dərəcədə artırmış və ən müasir texnika, silah-sursat almaqda davam etməkdədir. İşğal altında olan torpaqların azad edilməsi üçün Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında məqsədyönlü siyasət aparılır. Bu fəaliyyətin tərkib hissəsi ordu quruculuğudur. Cənab Ali Baş Komandan çıxışında ordu quruculuğunu daim öz diqqət mərkəzində saxlayacağını bildirmişdir: "Biz çalışacağıq və əminəm nail olacağıq ki, bu ordu daha da güclənsin və qarşıda duran bütün məsələləri həll edə bilsin".

Bir mərkəzdən idarə edilən, vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu ümummilli lider Heydər Əliyevin başladığı və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Ümummilli liderin ideyalarını layiqincə yerinə yetirərək ordu quruculuğu sahəsində öz səylərini daha da artıran cənab Ali Baş Komandan Azərbaycan Ordusunun müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olmuşdur. Bu isə hər bir hərbi qulluqçudan öz vəzifə borcunu vicdanla yerinə yetirməyi, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməyi, mənəvi-psixoloji və fiziki hazırlıqlı olmağı, hərbi intizamı möhkəmləndirməyi tələb edir.

Ümummilli lider Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə əlaqədar dövlətimizin siyasətini belə bəyan etmişdir: "Hamı bilməlidir ki, sülh tərəfdarı olmağımıza baxmayaraq, müharibənin yenidən başlanmamasını və bu məsələnin sülh yolu ilə həllini istəməyimizə baxmayaraq, bizim səbrimiz də tükənməz deyildir. Azərbaycan öz doğma torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**



### Qələbə - 75

# İkinci Dünya müharibəsi veteranları barədə sənədli filmlər hazırlanır

*Bu il faşizm üzərində tarixi Qələbənin 75-ci ildönümü beynəlxalq səviyyədə təntənə ilə qeyd ediləcək.*

Həyatı və mübarizəsi hər birimiz üçün örnək olan İkinci Dünya müharibəsi veteranlarının sayı getdikcə azalmaqdadır. Rusiya Federasiyasında fəaliyyət göstərən "Üçüncü minillikdə təhsil" Regionlararası İctimai Fondu müharibə iştirakçılarının xatirələrindən ibarət video arxivin yaradılması kimi unikal bir təşəbbüs irəli sürüb. Qurum bu layihəni təkcə Rusiya Federasiyasında deyil, həm də MDB ölkələrində həyata keçirməkdədir. Bu günlərdə Azərbaycana gəlmiş İctimai Fondun çəkiliş qrupu paytaxtımızda müharibə veteranlarının döyüş xatirələrini lentə alıblar.

- 2020-ci il MDB ölkələrində faşizm üzərində Qələbənin 75-ci ildönümü ili elan edilib, - "Üçüncü minillikdə təhsil" Regionlararası İctimai Fondunun prezidenti Boris Vişnyak bizimlə söhbətində dedi. - Belə qərara gəlmişik ki, bu münasibətlə sənədli televiziya filmləri yaradaq. Bizim layihə belə adlanır: "Mənim müharibəm". Məqsədimiz Böyük Vətən müharibəsi iştirakçılarının xatirələrini lentə almaq və onların əsasında tərtibatına və təqdimatına görə müasir sənədli telefilmlər yaratmaqdır. Bu həm onların özləri, həm də sonrakı nəsillər üçün olduqca vacibdir. Sənədli filmlər bir daha göstərəcək ki, Qələbə necə çətinliklə qazanılıb və biz sülhə, əmin-amanlığa görə onlara borcluyuq.

Yaradıcı qrup döyüş xatirələrinə arxivlərdən götürülmüş, müharibədə çəkilmiş xronikanı və fotoları əlavə edir. Sonra sənədli filmlər Rusiya Federasiyasının mərkəzi və regional telekanallarında, həmçinin MDB dövlətlərinin kanallarında nümayiş etdiriləcək.

Fond sənədli filmləri təkcə Rusiyada çəkmir, həmçinin keçmiş sovet respublikalarında veteranlarla görüşüb onların döyüş yollarını lentə köçürür. Bundan öncə belə çəkilişləri Belarusda, Moldovada, Qazaxıstanda həyata keçiriblər. Layihə çərçivəsində çəkilişlərə Azərbaycandan beş müharibə veteranı cəlb edilmişdi. Azərbaycanın görkəmli hərb xadimi, Sovet dövründə məsul hərbi vəzifələr tutmuş general-polkovnik Tofiq Ağahüseynov, İsmayıl Fərəcov, Nazim Ramazanov, Valentina Şevçenko və Əlikişi Cümşüdov Azərbaycan Hərb Tarixi Muzeyində aparılan çəkilişlərdə bir daha keçdikləri çətin döyüş yollarına nəzər saldılar, tarixi Qələbənin necə çətinliklə əldə edildiyini söylədilər.



Xatırlatmağa dəyər ki, böyük zəfərin qazanılmasında xalqımızın bütün maddi sərvətləri, əhalisi mahiyyət etibarilə müharibə üçün cəlb olunmuşdu. Soydaşlarımız həm ön cəbhədə vuruşmuş, partizan hərəkatında fəal iştirak etmiş, həm də arxa cəbhədə Qələbə üçün səfərbər edilmişdilər.

İkinci Dünya müharibəsi illərində sovet hərbi texnikasının 80 faizi Bakı yanacağı ilə hərəkətə gətirilirdi. Paytaxtımızda 130 növdən artıq silah və sursat istehsal olunurdu. Müharibə illərində ölkəmizdə beş diviziya formalaşdırılaraq cəbhəyə göndərilmişdi. Əgər 700 minə yaxın Azərbaycan vətəndaşı müharibəyə səfərbər edilmişdisə, onların təxminən yarısı cəbhələrdə həlak olmuşdu.

- Bakı şəhərində iki gün ərzində çəkilişləri yekunlaşdırdıq, filmlərin hazırlanması ilə bağlı digər işləri Moskvada davam etdirəcəyik, - Boris Vişnyak əlavə etdi. - Bizim burada fəaliyyət göstərməyimiz üçün göstərdikləri köməyə görə Azərbaycanın Rusiya Federasiyasındakı səfirliyinə, Müdafiə Nazirliyinin, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının və Azərbaycanın Rus İcmasının rəhbərliyinə öz minnətdarlığımı bildirirəm.

**Əbülfət MƏHƏRRƏMLİ,**
**Azərbaycan Hərb Tarixi Muzeyi**

### Hərbi texnikalar, silahlar

# M-346 "Master" təlim-məşq təyyarəsi



1993-cü ildə Rusiya və İtaliya arasında qarşılıqlı olaraq Yak AEM-130 proqramının həyata keçirilməsinə başlanılıb. Proqramın əsas məqsədi pilotların hazırlanması üçün təlim-məşq təyyarəsinin hazırlanması, müasir qırıcılara oxşar aerodinamik tərtibatın idarə edilməsi və təyyarənin idarə olunması (pilotaj) xüsusiyyətlərinə malik olmaq idi. 1996-cı il aprelin 25-də layihə əsasında təyyarənin uçuş sınağı həyata keçirildi. Lakin sonradan layihənin hər iki iştirakçısı arasında fikir ayrılığı olduğundan 1999-cu ildə İtaliya firması layihədən çıxıb özünün M-346 adı altında təlim-döyüş təyyarəsini hazırlamağa başladı. M-346 əsas xüsusiyyətlərinə görə Rusiyanın Yak-130 təyyarəsinə oxşardır, lakin təyyarə qərb avionika və mühərriki ilə cihazlandırılıb. Bundan başqa onun inşasında kompozit materiallardan istifadə edilib. Rusiyanın Yak-130 təyyarəsi isə ənənəvi alüminium ərintilərindən hazırlanıb.

M-346 təyyarəsinin ilk nümunəsi 2004-cü ilin iyununda oldu. Tamamlanma işlərinə isə uzun müddət sərf edildi və 2008-ci ilin iyununda seriyalarla istehsalından qabaq uçuş sınağı həyata keçirildi. Əvvəlki oxşarından fərqli olaraq onun şassisi gücləndirildi, hava tormozunun üzərində dəyişikliklər edildi. Bütün bu dəyişikliklər nəticəsində təyyarənin çəkisini 780 kiloqrama qədər azaltmaq, yanacaq ehtiyatını isə 200 kiloqrama qədər artırmaq mümkün oldu. Təyyarə iki ədəd ikikonturlu turboreaktiv F124-GA-200 mühərriki ilə, mühərriklər isə FADEC rəqəmli idarəetmə sistemi ilə təchiz edilib və öz sinfinə görə ən müasir sistemlərdən sayılır. Təyyarə güc qurğusuna görə Yak-130-dan fərqli olaraq yüksək sürətli səslə uça bilir. Təyyarədə kursant və təlimatçının yeri çoxfunksiyalı indikatorla cihazlandırılıb. Xarici asılqanının doqquz nöqtəsində (fyüzelaj, altısı qanadaltı, ikisi qanadlarının axırında olmaqla) ümumi çəkisi 3000 kiloqram olmaqla müxtəlif yükü daşıya bilər. Buraya asılan yanacaq çənləri, nişangah-naviqasiya konteynerləri, həmçinin "hava-hava" sinfindən idarə olunan raketlər, aviabombalar, idarə olunmayan raket blokları, 12,7 mm-lik kalibrli pulemyotlarla birlikdə konteynerlər də daxil edilə bilər. İstehsalçı, ilk növbədə M-346 təyyarəsini təlim-məşq təyyarəsi kimi nəzərdə tutub, lakin ondan yüngül hücum təyyarəsi kimi istifadə etmək mümkündür.

Taktiki-texniki xüsusiyyətlərinə gəldikdə isə M-346 "Master" təyyarəsi ikimotorlu, ikiyerli təlim-məşq təyyarəsidir. Onun uzunluğu 11,49 metr, hündürlüyü 4,76 metr, qanadlarının açılması 9,72 metr, qanadlarının sahəsi 23,52 kvadrat metr təşkil edir.

M-346 təyyarəsinin boş halda çəkisi 4610 kq, normal uçuş çəkisi 6700 kq, maksimal uçuş çəkisi 9500 kiloqrama qədərdir. Təyyarənin maksimal sürəti saatda 1059 kilometr, uçuş uzaqlığı 1980 kilometr, praktiki hündürlüyü isə 13715 metrdir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:
## hadisələr, faktlar

### "Fərat qalxanı" hərbi əməliyyatlarının keçirildiyi bölgədə terror aktının qarşısı alınıb



Terror aktı törətməyə hazırlaşan 13 PKK-YPG terrorçusu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyindən bildirilib. Terrorçular Türk Silahlı Qüvvələri tərəfindən Suriya ərazisində "Fərat qalxanı" hərbi əməliyyatlarının keçirildiyi bölgədə ələ keçiriliblər.

### Ukrayna Silahlı Qüvvələrində 30 min qadın xidmət edir



Hazırda Ukrayna Silahlı Qüvvələrində 30 min qadın xidmət edir və onlardan 902-si yüksək rütbəli zabitdir.

Bu barədə Ukrayna Silahlı Qüvvələrinin mətbuat xidməti məlumat yayıb.

Qadınların 12 minə yaxını döyüşlərdə iştirak edib. 2008-2014-cü illərdə Ukrayna Silahlı Qüvvələrində cəmi 1800 qadın xidmət aparıb. 2018-ci ildə isə bu göstərici 25 minə qədər artıb.

### Pakistanda törədilən partlayış nəticəsində 10 nəfər xəsarət alıb




Pakistanın Çaman şəhərində polis bölməsinin yaxınlığında minalanmış motosikletin partladılması nəticəsində 10 nəfər xəsarət alıb. Onların bir neçəsinin vəziyyəti ağırdır.

Yaralananların ikisi polisdir. Hadisə baş verən ərazi nəzarətə götürülüb.

### Tunisdə ABŞ səfirliyinə silahlı hücum edilib, ölən və yaralananlar var



Tunisdə motosikletlə hərəkət edən iki terrorçunun ABŞ səfirliyinin binasına əl qumbarası atması nəticəsində mühafizəçi polislərdən biri həlak olub, daha 7 nəfər yaralanıb. Yaralıların vəziyyətinin ağır olduğu bildirilir.

Tunis Daxili İşlər Nazirliyinin məlumatına görə, partlayışdan sonra səfirliyin binası qarşısında polislə atışma zamanı terrorçular öldürülüb, qanun keşikçilərindən beş nəfəri və mülki şəxslərdən ikisi ağır yaralanıb.

ABŞ səfirliyi "Twitter" vasitəsilə məlumat yayaraq, insanları diplomatik missiyanın binasından uzaq durmağa çağırıb.

### Alp dağlarında qar uçqunu beş nəfərin həyatına son qoyub



Avstriyanın Daxştayn regionunda qar uçqunu baş verib.

Dəniz səviyyəsindən 2800 metr yüksəklikdə baş verən uçqun nəticəsində üçü qadın, ikisi kişi olmaqla beş Çexiya vətəndaşı qar altında qalıb. Altı helikopterin müşayiət etdiyi çoxlu sayda xilasedici hadisə yerində xilasetmə əməliyyatına cəlb olunsa da, qar uçqunu altında qalan şəxslərin həyatını xilas etmək mümkün olmayıb.

Eksrertlərin rəyinə görə, hava şəraitinin mülayim keçməsi Alp dağlarında qar uçqunu təhlükəsini artırır. Hadisə baş verərkən yaxındakı şahidlər xilasediciləri vaxtında xəbərdar edə biliblər. Lakin eni 150-200 metr olan bu uçqunun dağ yamacında olduqca maili şəkildə hərəkəti turistlərin vaxtında tapılmasını mümkünsüz edib.

**AZƏRTAC-ın materialları əsasında**

## Yaza xitab

Novruz çıxıb taxtına,
Güllər düşüb baxtına.
Kosa gəlir qabağa,
Nəzər salır tabağa.

Çörəyi yoxdur Kosanın,
Xörəyi yoxdur Kosanın.
A Kosa, Kosa gəlsənə,
Torbanı doldursana!
Kosa döyür gözünü,
İtiribdir özünü.
Ocaq üstə sac qalıb,
Bütün qışı ac qalıb;
Torbasını uzadır,
Hamı bilir, qaydadır.
Kosaya pay verirlər,
Kosaya hay verirlər.
Boz Keçi - Saqqal Ağa,
Kosanı çəkir sağa,
Deyir doldur torbanı,
Söndür daha sobanı,
Sonra da gəl güləşək,
Dilimizlə yer eşək.
Kosa baxır keçiyə,
Ürəyinə xof düşür, -
Tez aradan sürüşür.
Keçiyə əl edərək.
Qarı Nənə gələrək,
Deyir Qışı ötürdük!
Gedib Yazı gətirdik!
Yaza çıxdı oğlağım,
Qış gözünə barmağım...
Qarının gəlir sözü
Keçinin çox xoşuna
Dövrə vurub - Novruzun
Dolanırlar başına!

## Xıdır Nəbi

Xıdır Nəbi bölərək
Az ömürlü çiləni,
Çırpır onun üzünə
Tərsinə bir silləni.
Deyir on gün bəsindir,
Qırıb-çatdın aləmi,
Sən qonaqsan, dünyanı
Dağıdarlar bələmi?
Qalan on gün mənimdir
Hər şey dönüb taxtaya.
Hansı canlı tab edər
Bu küləyə, şaxtaya?
Külək əsir, qoy əssin,
Qırılmasın ağaclar,
Qırılmasın meşələr,
Boş qalmasın yamaclar.
Yalquzağa qalmasın
Çöllər, düzlər, çəmənlər.
Evdə dustaq olmasın
Dehqanlar, yer əkənlər.
Qoyun-quzu qorxmadan
Çıxsın çölə, bayıra.
Kim qıyar insanları
İşdən, gücdən ayıra.
İş, həyat hərəkətdir,
Hərəkət - bərəkətdir.

## Boz ay

Gah bozarır, gah qızarır,
Gah qızarır, gah bozarır.
Günəş çıxır, tez də batır
Yazla Qışın arasında.
Hava meyxoş, hava sərin,
Qışla Yazın arasında.
Bu nə qışdır, bu nə yazdır?
Soyuq çoxdur, isti azdır.
Günəş doğur, bəs Günəşin,
O istisi harda qalıb?
O həniri, hərarəti,
Yoxsa ondan qışmı alıb?
Soyuq, şaxta Yerə hopub
İşləmişdir iliyinə.
Şehlər dönüb qrov olub,
Səpələnib Yer üzünə!

*Könlüm şeir istəyir*

# Novruz ənənələri poeziyada



*Xalqımızın adət-ənənələrinin başlanğıcı min illərlə səsləşir. Xalq adət-ənənələrini yaşada-yaşada qorudu, qoruya-qoruya yaşatdı. Rus imperiyasının sərt siyasi qadağaları da bunları tarixdən, xalqın yaddaşından silə bilmədi. Novruz adət-ənənələri ruhun mühafizəkarlığıyla yaşadıldı. Son illərdə bu bayram möhtəşəmliklə, həm də dövlət səviyyəsində qeyd olunur.*

*Novruz ənənələri poeziyamızda da yaşadılır. Ötən əsrin əvvəllərində Əhməd Cavadın yazdığı şeirlərdən bir neçəsini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

Qar da, buz da yağış təkin,
Çisək təkin tez-tez yağır.
Qar Nənə ətəyini
Bulud kimi tez-tez sıxır.
Qara bulud durulaşır,
Pambıq kimi dümağ olur.
Qara yağış - Ağ yağışa,
Yağa-yağa ürcah olur.
Quşlar damı hasarından
Yuvasını sökür daha.
Ağacların kəlləsində
Yeni yuva tikir daha.
Qonur köhnə ovlağına,
Sanki çıxır yaylağına.
Hamı Yaza hazırlaşır,
Sığırçınlar qaqqıldaşır.
Durna köçü səmt götürür.
Karvan çəkib köhnə yurda!
Bülbüllər də tez-tez ötür
O qoruqda, bu qoruqda.
Boz Ay dönüb qızardıqca
Boz bülbüllər sarı olur.
İlk çiçəyi qoxlayan da
Bal toplayan arı olur!
Boz Ay Qışı sıxışdırır,
Yaza yeni yollar açır!
Qışdan sonra gələn Yaza
Çöllər geniş qollar açır.
Xonça tutub el-obalar,
Sanki Yazı izləyirmiş.
Düzlər boyu xalı sərmiş,
Sanki gəlin gözləyirmiş!

## Birinci çərşənbə

Açıldı hava,
Qurtardı dava.
Getdi qış,
Gəldi yaz.
Doğdu Günəş,
Bitdi ayaz.
Çölə çıxdı
Qoyun-quzu.
Güldü yenə
Göyün üzü;
Güldü yenə
Yerin üzü.
Düzlər yenə çiçək açdı,
Günəş qovdu, soyuq qaçdı.
Soyuq qarla isti Günəş
Yazda Qışın davasıdır.
Görən deyir:
- Üzə dəyən
Meyxoş meh də
Gözəl Yazın havasıdır!

## İkinci çərşənbə

Bulaqların gözü açıq,
Ormanların üzü açıq;
Durnalardır uçub gələn
Qaqqıldaşa-qaqqıldaşa!
Çaylar axır dəryalara
Şaqqıldaşa-şaqqıldaşa!
Duman qalxır göyə doğru
Meşələrin nəzərindən.
Buzlar düşür parça-parça
Şüşələrin üzərindən.
Puçurlayır yavaş-yavaş
Ağacların budaqları.
Mehdən əsir həzin-həzin
Gül-çiçəyin yarpaqları!
Dərədə sel qıjıldayır,
Şən arılar vızıldayır.
Hər yanda xoş avaz gəlir,
Sular deyir: Yaz... Yaz gəlir!

## Üçüncü çərşənbə

Torpağa bax, torpağa,
Sanki qalxır ayağa.
Buxarlanır nəfəsi,
Oyanıbdır həvəsi.
Qızıl öküz tərpənir,
Torpaq sanki dillənir:
Çəmənim harda qaldı?
Səmənim harda qaldı?
Getdi qarlı yorğanım,
Getdi çənim, dumanım!
Gəlsin xalı-xalçalar,
Yollar boyu yoncalar,
Qoy bağ olsun, əkin olsun,
Mənim ana qucağım!
Səpin olsun, biçin olsun,
Gülsün hər bir bucağım!..

## Dördüncü çərşənbə

Mən oddan yaranmışam,
Odur südüm, nəfəsim.
Od rənginə boyanmışam,
Oddur gücüm, oddur səsim!
Taxılım da oddur mənim,
Oddur gülüm, çəmənim!
Qaynar sular canımdadır,
Vulkanları qanımdadır!
Ömrüm, günüm odda yaşar,
Meyvələrim oda oxşar.
Odlar mənim hakimimdir,
Mən odların hakimiyəm!
Babam oddur, anam oddur,
Odur ki, mən od kimiyəm!
Odsuz daşa oxşayardım,
Odsuz sonsuz yaşayardım!

# İdman

## Azərbaycanlı əkiz gimnast bacılar Budapeştdə qızıl və gümüş medallar qazanıblar



Əsmər və Sofiya Seyidova bacıları Macarıstanın paytaxtı Budapeşt şəhərində keçirilən bədii gimnastika üzrə ikigünlük "Tavasi kupa" beynəlxalq turnirində qızıl və gümüş medallar əldə ediblər.

Əkizlərin hər biri orijinal nömrə təqdim etməklə münsiflər heyətinin etimadını qazanıblar.

Qeyd edək ki, Seyidova bacıları tanınmış məşqçi İrina Berekin yetirmələridir.

## Avropa Olimpiya təsnifat turnirində ölkəmizin idman şərəfini 12 boksçu qoruyacaq




Kişi və qadın boksçulardan ibarət Azərbaycan milli komandasının martın 14-də Böyük Britaniyanın paytaxtı Londonda start götürəcək Avropa Olimpiya təsnifat turniri üçün heyəti müəyyənləşib.

10 gün davam edəcək yarışda ölkəmizin idman şərəfini 12 boksçu qoruyacaq.

Azərbaycan kişi boksçuların mübarizəsində tam heyətlə təmsil olunacaq. Millimizin baş məşqçisi Umberto Orta Dominqez Tokio-2020 Yay Olimpiya Oyunlarına lisenziya xarakterli yarışda Rüfət Hüseynov (52 kq), Tayfur Əliyev (57 kq), Cavid Çələbiyev (63 kq), Lorenzo Sotomayor (69 kq), Kamran Şahsuvarlı (75 kq), Alfonso Dominqes (81 kq), Rauf Rəhimov (91 kq) və Məhəmməd Abdullayevə (+91 kq) şans verəcək.

Qadınlardan ibarət yığmamızın baş məşqçisi Elbrus Rzayev Anaxanım Ağayeva (51 kq), Məhsəti Həmzəyeva (57 kq), Məryəm Cəbrayılova (69 kq) və Aynur Rzayevanı (75 kq) Londona aparmağa qərar verib.

Abşeron Olimpiya İdman Mərkəzində təlim-məşq toplanışında olan komandalarımız hazırlığı martın 11-dək davam etdirəcəklər. Martın 12-də isə boksçularımız Böyük Britaniyaya yollanacaqlar.

Qeyd edək ki, Avropa təmsilçiləri üçün növbəti lisenziya yarışı Fransanın paytaxtı Parisdə olacaq. Dünya Olimpiya təsnifat turniri mayın 13-24-də keçiriləcək.

## Taekvondo üzrə Azərbaycan yığması Niderlandda keçirilən beynəlxalq turnirdə yeddi medal qazanıb



Niderlandın Eyndhoven şəhərində keçirilən taekvondo üzrə "Dutch Open" beynəlxalq turniri başa çatıb. Yarışda iştirak edən taekvondo üzrə Azərbaycan yığma komandası G1 kateqoriyalı 7 (dörd qızıl, iki gümüş və bir bürünc) medal qazanıb.

47-ci ənənəvi Niderland açıq çempionatında komandamızın üzvlərindən Qaşım Maqomedov (58 kiloqram), Milad Beigi (80 kiloqram), Radik İsayev (87 kiloqramdan yuxarı) və Fəridə Əzizova (67 kiloqram) turnirin qalibi olublar.

İdmançılarımızdan Cavad Ağayev (68 kiloqram) və Payam Qobadi Oğaz (87 kiloqram) isə yalnız finalda məğlub olaraq gümüş medal qazanıblar. Bəhruz Quluzadə (54 kiloqram) yarışı yarımfinal mərhələsində başa vurub.

**AZƏRTAC-ın materialları əsasında**

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mirzəyev Elyar Cəlaloğluna 2017-ci ildə verilmiş şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 131
Nüsxə 3900